Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Nəğmələrlə dolu bir şair ömrü - Əhməd Cəmil

**Şair Əhməd Cəmilin anadan olmasının 110 illik yubileyi münasibətilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Nəğmələrlə dolu bir şair ömrü - Əhməd Cəmil:** Əhməd Cəmilin anadan olmasının 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Giriş:

Əhməd Cəmil Səməd Vurğun, Rəsul Rza, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Osman Sarıvəlli və başqaları ilə çiyin-çiyinə çalışan, Azərbaycan şeirini yeni keyfiyyətdə inkişaf etdirən söz ustalarından biri olmuşdur. Şairin qırx ilə yaxın bir dövrü əhatə edən yaradıcılığı Azərbaycan şeirinin əsas inkişaf yolunda həyata keçirdiyi işlərdən biridir. Onun yaratdığı əsərlər uşaqlarla yanaşı böyüklərində ağzında əzbərə çevrilmişdir. Əhməd Cəmilin şeirlərini oxuyanda, hər gün açılan səhərin, doğan günəşin ömrümüz boyu gözümüzü yormadığı yadımıza düşür. Bu şeirlərdə gurultu yerinə insan səsi, parıltı yerinə ürəyi qızdıran bir hərarət duyulur. Bu cəhətdən şair bizim ədəbiyyatımızda nadir sənətkardır. Onun şeirləri yağışdan sonrakı şəffaf, ətirli bir bahar havası kimi oxucusunun könlünü oxşayır. Bu il 110 illik yubileyi tamam olan Əhməd Cəmil yaradıcılığını oxuculara yaxından tanıtmaq üçün mədəniyyət müəsisəsi olaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında şairin həyat və yaradıcılığından bəhs edən müxtəlif formalı tədbirlər həyata keçiriləcək. Bununla bağlı metodik mərkəz olaraq kitabxananın elmi-metodika şöbəsi vəsait hazırlamışdır. Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulmuş vəsait iki hissədən ibarət olub, yubilyarın yaradıcılığı və keçiriləcək tədbirlərdən ibarətdir. Birinci hissədə nəğməkar şairin həyat və yaradıcılığı haqqında oxuculara ətraflı məlumat verilir, bir-birindən maraqlı əsərlərindən söhbət açılır. İkinci hissədə Əhməd Cəmil yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanalarda keçiriləcək tədbir formalarından söhbət açılır.

*İnanıram, bilirəm*
*Onda mən olmasamda,*
*Qəlblərdə qalacağam.*
*Bir xəyala çevrilib*
*Buludda dolacağam.*
*Onların başı üstdən*
*Uçduqca uzaq, şirin*
*Xatirə olacağam*

## Həyat və yaradıcılığı

***Mənim yaradıcılıq prinsipim belədir: - Əlimə qələm alanda çalışıram ki, təzə şeirim bu vaxta kimi yazdıqlarımı təkrar etməsin.***

Əhməd Cəmil

Azərbaycanın tanınmış şairlərindən olan Əhməd Səttar oğlu Cəmilzadə (Əhməd Cəmil) 1913-cü ildə Gəncədə anadan olmuşdur. O, erkən yaşlarında atasını itirmiş, anasının himayəsində böyümüşdür. İbtidai və orta təhsilini Gəncə şəhər məktəblərində aldıqdan sonra Bakıda Azərbaycan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirərək müəllimlik sənətinə yiyələnmişdir. Bir müddət Şəmkir rayonu və Gəncə şəhərində müəllimlik etmişdir. Bu dövrdə müəllimliklə yanaşı, bədii yaradıcılıqla da məşğul olan Ə.Cəmil ömrü boyu qələmi əlindən yerə qoymamış, çoxlu bədii əsərlər, uşaqlar üçün bir-birindən maraqlı şeirlər yazmışdır.

Əhməd Cəmil ümumxalq məhəbbətini, oxucu etimadını qazanmış sənətkarlardan olub, belə bir etimadı qazanmaqla kifayətlənməmiş, onu çox böyük mətanət, mərdlik, cəsarət və mənəvi enerji sərf etmək bahasına axıra qədər qoruyub saxlamışdır. Azərbaycan ədəbiyyatının nailiyyətlərini ardıcıl şəkildə izləyənlər, bu tükənməz, coşqun ədəbi qaynaqdan

mənəvi-estetik tərbiyə və zövq alanlar sırasında elə bir adam göstərmək olmaz ki, o, Əhməd Cəmilin şeirlərinə, onun yüksək poeziyasına biganə qalsın.

Şairin yaradıcılığını əhatə edən *"Seçilmiş əsərləri"* göstərir ki, o, heç zaman Azərbaycan xalqının mənəvi həyatından, mübarizəsindən uzaq düşməmiş, əksinə, bu mübarizəyə kömək etmiş, xalqımız ilə, zəmanəmiz ilə birgə boy atıb möhkəmlənmiş, əsrin qabaqcıl ideallarını tərənnüm etmişdir. Buna görə də təəccüblü deyil ki, Əhməd Cəmil şeiri cavan qalıb. Hətta bu gün o, dünənkindən daha gəncdir. Sənətkarın ilhamına qol-qanad, ürəyinə od verən də məhz bu ruh, bu tarixi nikbinlikdir. Şairin poeziyasında səmimiyyətdən uzaq, boş təsadüfi misra tapmaq çətindir. İstər sevincini, istər qəmini bildirsin, Əhməd Cəmil həmişə səmimidir, onun hər şeiri, hər misrası daxili qənaətin, səmimiyyətin və ilhamın məhsuludur. Buna görə də, illər keçdikcə onun dərddən sevincə, qəmdən mübarizəyə doğru irəliləməsi yalnız bir şair kimi deyil, həm də bir insan kimi onun xoşbəxtliyidir.

Əhməd Cəmil bir şair kimi müharibə dövründə parlamış, geniş oxucu rəğbəti qazanmışdır. O, Azərbaycan poeziyasının qızıl fonduna daxil olan sujetli lirikanın ən gözəl nümunələrini məhz bu illərdə, həm də əksəriyyətini səngər şəraitində yaratmışdır.

Şair Krım cəbhəsində, Şimali Qafqaz vuruşmalarında iştirak edib. "Hücum", "Döyüş zərbəsi", "Vətən uğrunda irəli" redaksiyalarında çalışarkən ön atəş xəttində igidlik göstərən azərbaycanlı əsgərlərin hünərini gözləri ilə görmüş, onlarla çiyin-çiyinə dayanıb, üz-üzə söhbətlər etmiş, duyğu və düşüncələrini şeirin dilinə çevirib isti-isti, barıt qoxulu qəzet səhifələri vasitəsilə onları vətən torpağının azadlığı yolunda yeni-yeni qələbələrə ruhlandırmışdır.

Əhməd Cəmili bir şair kimi oxuculara sevdirən onun şeirlərinin sadəliyidir. Nəzərə almaq lazımdır ki, bu şeirlərdə adi sadəlikdən deyil, böyük sənətə yaraşan böyük sadəlikdən söhbət gedir. Bu elə bir sadəlikdir ki, təfəkkür aydınlığından, bədii forma yetkinliyindən, xəlqilikdən və realizmdən doğur.

Şairin poeziyası dağ çeşmələri kimi təmiz və şəffafdır. Əhməd Cəmilin sözlərini hətta misra zəncirlərindən açıb nəsr şəklində yazdıqda belə yenə şeir kimi səslənir. Çünki şeiriyyət onun yalnız formasında deyil, ruhundadır. Bu il yubileyini qeyd etdiyimiz Əhməd Cəmil heç vaxt şöhrət əsiri olmamış, xalqa, torpağa qırılmaz tellərlə bağlanmışdır. Heç təsadüfi deyil ki, Nazim Hikmət onu kökləri torpağın dərin qatlarında olan əzəmətli bir çinar ağacına bənzədib. Cəmilzadə Əhməd Səttar oğlu 1913-cü il oktyabrın 30-da İrəvanda sənətkar ailəsində anadan olmuşdur. 4 yaşında ikən atasını itirmiş, anasının himayəsi altında böyüyüb boya-başa çatmışdır. İbtidai və orta təhsilini Gəncə şəhər orta məktəbində aldıqdan sonra, 1930-1933-cü illərdə Bakıda Ali Pedaqoji İnstitutun ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. Ali təhsilini bitirdikdən sonra bir müddət Şəmkirdə və Gəncədə orta məktəb müəllimi işləmişdir. Gəncədə işlədiyi illərdə o, qəzet və jurnal səhifələrində günün vacib tələbləri ilə səsləşən bir sıra şeirlər də qələmə almışdır: “Dünyanın gözəlliyi”, “1914”, “Bu yerlər”, “Şübhə”, “Xatirə”, “Yadigar”, “Qoca aşıq”, “Şahinlər”, “Vətən”, “Səhər-səhər”, “Xoşbəxt uşaqlara”, “Can nənə bir nağıl de” və başqaları bu şeirlərdəndir.

Şair müharibə zamanı “Döyüş zərbəsi” qəzetində, 1942-ci ildə isə Şimali Qafqaza gələrək orada “Hücum” və “Vətən uğrunda” qəzetlərində çalışmağa başlamışdır. 1943-cü ildə Qafqaz uğrunda döyüşlərdə yaralanan Əhməd Cəmil Bakıya gəldikdən

sonra burada da ədəbiyyat qəzetinin məsul katibi vəzifəsində çalışmışdır. Müxtəlif illərdə Azərbaycan Sovet Yazıçılar Birliyində məsləhətçi, “Ədəbiyyat qəzeti”ndə ədəbi işçi, məsul katib işləmiş, sonra Yazıçılar İttifaqına məsul katib seçilmişdir. Əhməd Cəmilin yaradıcılığı dövlət tərəfindən həmişə qiymətləndirilmiş, əsərləri 1975, 1979-cu illərdə Bakıda, 1965-ci illərdə Moskvada çap olunmuş, yaradıcılığına aid məqalələr yazılmış, dərc edilmişdir. Şeirləri vaxtaşırı “Hücum”, “İnqilab və mədəniyyət”, “Dağıstan füqərası” və başqa qəzet, jurnallarda dərc edilmişdir. 1942-1943-cü illərdə cəbhə qəzetlərində əməkdaşlıq etmiş və “Yadigar”, “Əsgər qardaşıma”, “Şaxta baba”, 1943-cü ildə “Can nənə bir nağıl de” adlı şeirlərini çap etdirmişdir.

Vaxtında gəlmişik bu dünyaya biz
Bu dünya yenidən qurulmalıydı.
Alovlar içində çalxanan dəniz
Şəfəqlər içində durulmalıydı.

Təkcə bu parça yox, onlarla şeiri imkan verir deyək ki, kimdən, nədən, həyatın hansı sahəsindən yazırsa yazsın, fərqi yoxdur, Əhməd Cəmil bizim günlərin, bu dünyanı yenidən quranların, sabaha ümidlə nur saçanların şairidir. O, hadisələri tipik mahiyyətinə, oxucunun zövq və təbiətinə uyğun seçir, fikrin sadə, orijinal ifadəsini verir. Dərin fəlsəfi və bədii ümumiləşdirmələrə üstünlük verən Əhməd Cəmil adi təsadüfi hadisələrdən yazmırdı, insanda böyük inam və ümid axtarırdı. O, novator sənətkar kimi özünə və yaradıcılığına qarşı son dərəcə tələbkar idi. Az yazır, amma mənalı yazırdı. Şeirləri üzərində səbir və təmkinlə işləyirdi.

Duymadığı, daxilən yaşamadığı hadisələri, mənasını dərk etmədiyi hadisələri qələmə almırdı. Şeirin daxili bütövlüyünə,

ahəng və musiqililiyinə, sözlərin yerində işlənməsinə xüsusi əhəmiyyət verirdi. Bu səbəbdən də onun şeirləri emosionallığı, aydınlığı, sadəliyi ilə fərqlənir, tez və asan əzbərlənirdi.

Əhməd Cəmil yaradıcılığı Azərbaycan poeziyasında süjetli lirikanın ən yaxşı nümunələrindəndir. Öz üslubunu təyin etmək və ona daima sadiq yaşayıb-yaratmaq şair üçün səadətdir. Əgər sənin dediyin xırdaca bir söz özünündürsə sən vüqarlı adamsan, başqasına məxsusdursa sən sənətkar deyilsən. Əhməd Cəmil heç kəsi yamsılamırdı. Başqalarının söz, düşüncə pərdələri altında qalmaq isə fəlakətdir. Sənətin bir düşməni var: yamsılamaq! Sənət əzəmət və vüqar tələb edir. Ümumiyyətlə, gözəlliyi, müasir həyatın tipik səciyyəvi hadisələrini daha tez duyan, bəxtəvər günlərin tərənnümündən yorulmayan, gəncliyin inam və sevgi dolu nəğməsini yaratmağı məqsədə çevirən Əhməd Cəmil xalqa, doğma torpağa bağlı sənətkardır. Əhməd Cəmilin həyat hadisələrinə həsr olunan şeirləri də az deyildir. Lakin o belə əsərlərində təkrara varmır, hər dəfə onun yeni tipik xüsusiyyətini qabardır, mövzularını həyatın rəngarəng sahələrindən alır. Əhməd Cəmilin müxtəlif illərdə yazdığı şeirlərini əhatə edən kitabları oxuyarkən oxucuda ciddi maraq oyadır. Kitablarının maraq oyatmasının sirri burda Böyük Vətən müharibəsi dövrünü əhatə edən şeirlərin olmasıdır. Axı Əhməd Cəmil həm də Böyük Vətən müharibəsi iştirakçısıdır.

**Keçiriləcək tədbirlər**

Hər il müxtəlif tədbir, virtual təqdimatlarla, müsabiqələrlə oxuculara maraqlı olacaq layihələrini həyata keçirən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxucuları kitabxananın sosial şəbəkələrdəki hesabları üzərindən həmin layihələrlə tanış ola bilirlər. Kitabxana kollektivi tərəfindən hazırlanmış bu tədbirlərdə müxtəlif uşaq yazarları, rəssam, tərcüməçi, psixoloq və tədqiqatçı, naşirlər oxucularla görüşərək müasir dövr kitabxana tədbirlərini daha maraqlı edirlər.

Bu il anadan olmasının 110 illiyi münasibətilə Əhməd Cəmilin həyat və yaradıcılığının təbliği üçün kitabxanada bir sıra tədbirlər nəzərdə tutulub. Bu tədbirlərin planına şairin müxtəlif şeir və poemaları əsasında hazırlanmış səhnəciklər, kiçikyaşlılar üçün müəllifin uşaq şeirlərinin ucadan oxusu, balacalara şeir saatı, qələbəyə səsləyən şeirlərindən hazırlanmış səhnələr, oxucularla ifadəli oxu, anım gecəsi və s.aiddir.

Yubiley tədbirlərinin keçirilməsi üçün istifadə edəcəyimiz sərginin nümunəsini təqdim edirik.

**Başlıq**

**Portret**

**Şairin kitabları**

**Şeir parçası, onun haqqında dahilərin söylədikləri fikirlər.**

**Yubilyarın həyat və fəaliyyətindən bəhs edən məlumatlar, fotolar**

Uşaq kitabxanasında oxucularla keçiriləcək sərgi güşələrinin və stendlərin xüsusi əhəmiyyəti vardır. Kitabxanada Əhməd Cəmilin müxtəlif səpkidə yazdığı şeirlərini oxuculara tanıtmaq üçün güşə təşkil edilir. Sərginin təşkili zamanı "Azərbaycan ədəbiyyatında hər zaman yaşayan Əhməd Cəmil", "Əhməd Cəmil yaradıcılığı və ədəbiyyat ", "Sadəlik və dərinlik", "Sülh və səadət carçısı", "Böyük arzularla yaşayan şair", "Uşaqlara

məhəbbətlə”, “Müharibə müsibətindən danışan şair” və s. başlıqlardan istifadə etmək olar. Sərgidə həmçinin şairin müharibə mövzusunda yazdığı ən gözəl şeir nümunələrindən “Can nənə bir nağıl de!”, “Xatirələr dəftərimdən”, “Qaçqınlar” və s. şeir kitabları da yer alır.

**Kitab sərgisi**
















**Sərgidə veriləcək sitatlar:**

Əhməd Cəmil şeirləri saf və təmiz bir bahar havası kimi asan udulur, günəşin ilıq təravəti kimi bizim sinirlərimizi oxşayır. “Sənin dediyin xırdaca bir söz sənin özünə məxsusdursa, sən vüqarlı adamsan! Sənin dediyin böyük bir söz başqasına məxsusdursa, sən vüqarsız adamsan” Əhməd Cəmilin bu sözləri onun özünə məxsusdur.

“Mən şair Əhməd Cəmilin çaldığı şeir rübabını dinləyirəm. Bu rübabın tellərindən qopan zərif və mənalı nəğmələr nə qədər dadlı və təbiidir. Bunlar saf dağ çeşmələri kimi şırıl-şırıl axır, ilk baharın gülləri kimi ətir saçır. Bu nəğmələrdə zorlanmamış, heç bir təzyiq altına alınmamış bir qəlbin, həm də həqiqi bir şair qəlbinin çırpıntıları səslənir! Mən həqiqi şair dedim. Bu, həqiqi ilham deməkdir. Əsl ilham könüllər yolçusu, könüllər aşiqi olan bir şairin hünəridir”.

**Səməd Vurğun,**
*Xalq şairi*

***

Əgər Əhməd Cəmil ömrü boyu təkcə “Can nənə bir nağıl de” şeirini yazmış olsaydı da ədəbiyyatımızda özünə layiqli yer tutmuş olacaqdı.

**Səməd Vurğun,**
*Xalq şairi*

Onun əsərləri yadigar nəğmələrə çevrildi. Belə nəğmələrə ki, dünən də səslənir, bu gün də səslənir, sabah da səslənəcək.

**Tofiq Mütəllimov,**
*Şair*

Şairlər müxtəlifdirlər: Mayakovski kimi ipə-sapa yatmayanlar və Əhməd Cəmil kimi gözə görünməyənlər.

**Əli Kərim,**
*Şair*

Onun poeziyası səhər mehi kimi dərhal adamın canına sinir... Əhməd Cəmilin şeir dili xalq danışıq dilinə yaxındır. Onun lirik qəhrəmanı pafossuz danışır. Lakin bu, pıçıltı da deyil.Mən şeirdə məhz bu cür dili sevirəm.

**Nazim Hikmət,**
*türk şairi*

**Kitab icmalı:**
**Cəmil, Əhməd. Şeirlər və məqalələr : 2 cilddə; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Şərq-Qərb, 2015. - 560 s. : foto ; 22 sm. - 500 экз. - ISBN 978-9952-505-80-1**




Yuxarısinif şagirdlərinə yubilyar şair Əhməd Cəmili tanıtmaq üçün onun müəlifi olduğu kitabların icmalını təşkil edə bilərik. Bu kitablardan 2015-ci ildə latın əlifbası ilə nəşr edilmiş Əhməd Cəmilin *"Şeirlər və məqalələr"* kitabının biblioqrafik icmalını hazırlaya bilərik. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab 2 cilddən ibarət olub Şərq-qərb Nəşriyyat Evi tərəfindən çap edilmişdir. Kitabda şairin müxtəlif vaxtlarda yazdığı şeir və məqalələri yer almışdır. Həmçinin şairin yaradıcılığında müraciət etdiyi mövzular haqqında məlumat verilir. Şairin oxuculara təqdim edilmiş bu şeirlər toplusunda gələcək tədqiqatçılar, oxucuların istifadəsini rahatlaşdırmaq üçün şeirlər və məqalələr xronoloji ardıcıllıqla verilmişdir. Bu da şairin yaradıcılıq yolu haqqında məlumat almağı asanlaşdırır. Kitabın sonunda Əhməd Cəmilin ailə və yaradıcılıq fotolorı ilə də tanış ola bilərik. Kitabın 363-cü səhifəsində nəğməkar şair Əhməd

Cəmilin məqalələri verilmişdir. Tədqiqatçılar, geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu məqalələr haqqında oxucularla söhbət, müzakirə apara bilərik.

## Əhməd Cəmilin yaradıcılığında müharibə mövzusu

Böyük Vətən müharibəsi illərində Əhməd Cəmil bir əlində qələm, bir əlində silah ön cəbhədə döyüşürdü. Buna görədə doğma torpağa məftunluq, məhəbbət onun şeirlərinin canında, qanında, mayasındadır. Müharibə mövzusunda şairin qələmə aldığı "Can nənə bir nağıl de" şeiri 40-50-ci illərin ən oxunaqlı şeirlərindən olmuşdur. Bu şeirlə o, 1941-1945 il dövrünün bütün nənə-nəvələrinə təskinlik himni yaratmışdır. Şeirdə canlanan nənə ilə nəvənin sohbəti başlayandan bitənə qədər poetikliyini itirmir. Müharibənin təkcə insanlar arasında bir savaş deyil uşaqlara da nə qədər psixoloji təsir etdiyini göstərir. Cəbhədəki atasını xatırlayan bir uşağın mənalı sualları, nənəsi ilə şirin söhbəti şeirin təsir gücünü artırır, onu oxunaqlı edir. Çöldəki soyuqdan canında bir gizilti duyan, atasının səngərdə olduğunu xəyalına gətirən, ağ toğlunu atası üçün kəsməyi ürəyindən keçirən və bu arzu ilə yuxusunda ona qovuşan körpənin narahatlığı təbii və gözəldir. Özü təsəlliyə möhtac olduğu halda, körpə nəvəsinə təsəlli verən nənənin həsrət və intizarı da şeirdə aydın duyulur. Şeiri oxuyarkən oxucuda da adı bizə məlum olmayan bu qəhrəmana məhəbbət, dərin hüsnü-rəğbət baş qaldırır və onun bahar zamanı müjdə gətirən qaranquşla bir zamanda qələbəyə çatacağına ürəkdən inanırıq.

Müharibə mövzusu Əhməd Cəmil yaradıcılığında mühüm yer tutduğundan o, özünün bir çox gözəl əsərlərini bu mövzuda yazmışdır. Özü də müharibədə iştirak etdiyindən, döyüşlərdə, həmin səhnələri gördüyündən şairin bu səpkili şeirləri maraqla oxunurdu. Onun ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı

İsrafil Məmmədova həsr etdiyi “Qəhrəman qardaşıma”, “Çağırış”, “Süngü yarası”, “Qaçqınlar”, “Əsgər qardaşıma”, “Nişan üzüyü”, “Payızın son ayıdır”, “Medal”, “Məni yada salırmı” şeirlərini qeyd edə bilərik. M.Tursunzadə deyir: “Əhməd Cəmilin müharibə dövründə yazılmış şeirləri heç vaxt parlaqlığı, qiymətini itirməyən incilərdir”.

Doğurdanda, Əhməd Cəmilin şeirləri səmimi və zərif hisslərlə, canlı bədii lövhələrlə zəngindir. O, dünyamızın narahat taleyi ilə yaşayır, cari gerçəkliyin aktual problemlərinə fəal vətəndaşlıq münasibəti bəsləyirdi. Çox hallarda Əhməd Cəmil geniş, əhatəli hadisə və əhvalatları süjetli lirik şeirə sığışdırır, mahiyyəti ifadəli, dramatik dialoqlarla açır. Onun hələ müharibədən əvvəlki dövrdə yazdığı şeirləri də oxucuların, o cümlədən ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Əhməd Cəmilin müstəqil bir şair kimi inkişaf və bədii yaradıcılığı müharibə dövrü ilə bağlıdır. Cəbhədə yazılmasına baxmayaraq onun bu şeirlərində müharibənin atəş səsləri, qulaq batırıcı gurultuları bilavəstə eşidilmir, ifadə və misraların təsvir ahənginə uyğun olaraq zahiri bir sakitlik, təbiət və məhəbbət lirikasına xas incəlik duyulur. Lakin müharibənin ön və arxa cəbhədəki əks-sədaları şeirlərin ruhuna elə məharətlə səpələnir ki, onları daxili ağrısız oxumaq mümkün olmur. Şair bir tərəfdən iştirak etdiyi döyüşlərdən, ümumiyyətlə, cəbhə həyatından mənalı epizod və məqamlar seçməyə imkan tapır, o biri tərəfdən onların müvafiq poetik formada onun ifadəsinə nail olur. Şairin “Tonqal başında”, “Açıl ey səhər”, “Qaçqınlar”, “Nişan üzüyü” və s. şeirləri belə məzmun nümunələri sayıla bilər. Əhməd Cəmilin müharibə dövrü yaradıcılığının əsas xüsusiyyətlərindən biri də döyüşlərdə bilavasitə iştirak edərkən cəbhəyə dair poetik hadisə və lövhələri canlandırmağa imkan tapması, həm də incə şair həssaslığı ilə cəbhəni görüb əks etdirməsidir.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmuş mövzular üstünlük təşkil edir. Müharibə şəraitində yaşayan bir ölkə olaraq gənc nəsildə torpağa, vətənə məhəbbət hisslərinin aşılanması, düşmənə nifrət duyğularının formalaşması üçün bu mövzuda yazılmış bədii əsərlərin təbliğinə kitabxanada daha çox yer verilir.Bu mövzuda Əhməd Cəmilin şeirləri çox olduğundan onun şeirlərindən kitabxanada vətənpərvərlik mövzusu ilə bağlı keçiriləcək tədbirlərdə istifadə etmək olar. Şairin arxa cəbhə haqqında şeirlərini iki qismə ayırmaq olar. Müharibənin dəhşətlərindən keçən döyüşçünün tez-tez cəbhəni, doğma yerləri, insanları anaraq düşüncələrə qapılması kimi təbii bir hisslə bağlı olaraq yaranan şeirləri birinci qismə aiddir. O, ən çətin döyüşlərdə də, sarsıntılı psixoloji anlarda da, zəfərlərdən doğan sevincli günlərdə də Vətəni, doğma insanları xatırlayır. Bu xatirələr poetik hissləri dilləndirir, şairin ümid və inamlı şeirlərində maraqlı bir cəhət də müşahidə edilir. Belə ki müharibə ən incə qəlbli insanları da sərtləşdirir, ürəklərdəki zərif nöqtələri intiqam hissi ilə doldurur. Lakin diqqət yetirsək ədalətli intiqam təşəbbüsü də belə incə ruhlu insanlarda olur. Müharibə ancaq onu törədənlərin, istillaçıların hisslərini kobudlaşdıra bilər. Vətən və onun nicatı naminə vuruşlara atılanlar isə məhz hər cür dəhşətlərin, qanlı qırğın və fəlakətlərin kökünü kəsmək niyyəti güdürlər. Onun "Düşüncələr", "Xatirələr dəftərimdən", "Məni yada salırmı?" şeirləri bu cəhətdən səciyyəvidir.

Ocaq sönür, yel əsir,
Yağış döyür səngəri...
Yenə də yada düşür
Ömrün ötən günləri.

İkinci qisim əsərlər isə şairin arxa cəbhə haqqında bilavasitə şəxsi duyğularını əks etdirən şeirlərindən fərqli olaraq, ümumi

səciyyə daşıyır. Bu şeirlərdə məzmun və onların ifadə tərzində müstəqillik duyulur. Şair öz təxəyyülünə arxalanaraq arxa cəbhədə baş verənləri xüsusi epizodlarda ümumiləşdirərək əks etdirir. Bu şeirləri oxuyarkən açıq-aydın duyulur ki, Əhməd Cəmil arxa cəbhədə vuruşlarsız belə olan, lakin aclıq, həsrət içində davam edən müharibəni şair həssaslığı ilə duyur. Bu şeirlərdə şair son dərəcə arxa cəbhə haqqında düşünür. Şeirlərində canlılıq, axıcılıq duyulur.

"Can nənə bir nağıl de!" əsəri təkcə Əhməd Cəmil yaradıcılığında deyil, Azərbaycan poeziyasında süjetli lirikanın ən gözəl nümunələrindəndir. Şeirdə zahirən müharibə illərinin adi bir lövhəsi təsvir edilir.

Atasız qalan, hər gün böyüklərindən atasını xəbər alan uşağın əhval-ruhiyyəsi. Adi görünən, lakin təkcə müharibə illərində deyil, ondan sonra yaranan əsərlərin mövzusuna çevrilən mənzərələri elə bədiiliklə əks etdirir ki, oxucu uzun müddət onun təsirindən çıxa bilmir.

Böyük Vətən müharibəsi illərində Əhməd Cəmil bir əlində qələm, bir əlində silah ön cəbhədə döyüşürdü. Buna görədə doğma torpağa məftunluq, məhəbbət onun şeirlərinin canında, qanında, mayasında olmuşdur. Müharibə mövzusunda şairin qələmə aldığı *"Can nənə bir nağıl de"* şeiri 40-50-ci illərin ən oxunaqlı şeirlərindən idi. Bu şeirlə o 1941-1945 il dövrünün bütün nənə-nəvələrinə təskinlik himni yaratmışdır. Şeirdə canlanan nənə ilə nəvənin sohbəti başlayandan bitənə qədər poetikliyini itirmir. Müharibənin təkcə insanlar arasında bir savaş deyil uşaqlara da nə qədər psixoloji təsir etdiyini göstərir. Cəbhədəki atasını xatırlayan bir uşağın mənalı sualları, nənəsi ilə şirin söhbəti şeirin təsir gücünü artırır, onu oxunaqlı edir. Çöldəki soyuqdan canında bir gizilti duyan, atasının səngərdə olduğunu xəyalına gətirən, ağ toğlunu atası üçün kəsməyi

ürəyindən keçirən və bu arzu ilə yuxusunda ona qovuşan körpənin narahatlığı təbii və gözəldir. Özü təsəlliyə möhtac olduğu halda, körpə nəvəsinə təsəlli verən nənənin həsrət və intizarı da şeirdə aydın duyulur. Şeiri oxuyarkən oxucuda da adı bizə məlum olmayan bu qəhrəmana məhəbbət, dərin hüsnü-rəğbət baş qaldırır və onun bahar zamanı müjdə gətirən qaranquşla bir zamanda qələbəyə çatacağına ürəkdən inanırıq.

Müharibə mövzusu Əhməd Cəmil yaradıcılığında mühüm yer tutduğundan o, özünün bir çox gözəl əsərlərini bu mövzuda yazmışdır. Özü də müharibədə iştirak etdiyindən, döyüşlərdə, həmin səhnələri gördüyündən şairin bu səpkili şeirləri maraqla oxunurdu. Onun ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr etdiyi *"Qəhrəman qardaşıma", "Çağırış", "Süngü yarası", "Qaçqınlar", "Əsgər qardaşıma", "Nişan üzüyü", "Payızın son ayıdır", "Medal", "Məni yada salırmı"* şeirlərini qeyd edə bilərik.

Bu şeirlərdən ibarət kitabxanada şeir müsabiqəsi təşkil edə bilərik. Kitabxanın saytında müsabiqənin keçiriləcəyi haqqında elan yerləşdirilir. Müsabiqədə oxucuların ifasında *"Açıl, ey səhər","Can nənə bir nağıl de", "Düşüncələr", və s. şeirlərindən istifadə etsək maraqlı olar.*

**Sual-cavab**

Kitabxanada aşağı sinif şagirdlər arasında sual-cavab hazırlamaq olar. Viktorinada istifadə edəcəyimiz sualları təqdim edirik.

1. Əhməd Cəmilin yaradıcılığı yaddaşınızda necə qalıb?
2. Əhməd Cəmilin uşaq şeirlərindən hansını bilirsiz?
3. "Can nənə bir nağıl de" hansı mövzuda yazılmışdır?
4. Onun ilk şeri hansı olub?

5. Fəsillər haqqında şairin hansı şeirindən məlumat ala bilərsiniz?
6. Ey Vətən ana Vətən,
Heyranam , sənə Vətən!
Dupduru göllərin var.
Yamyaşıl çöllərin var.
Dağların baş-başadır,
Düzlərin tamaşadır.
Dərələrin dərindir,
Yaylaqların sərindir.
Nə gözəldir qucağın
Doğma odun, ocağın!
Kəndlərin gül-çiçəkdir,
Şəhərlərin göyçəkdir.
Sakitdir gen düzlərin,
Coşğundur dənizlərin.
Sən dünyanın gözüsən,
Taleyimin özüsən!
Sevirəm bayrağını,
Öpürəm torpağını!
Şairin bu şeirində Vətənin tərənnümü necə verilir?
7. Əhməd Cəmil hansı jurnalın baş redaktoru vəzifəsində işləyib?
8. "...nağıl qalmaz sabaha" misraları hansı şeirdəndir?
9. "Ey Vətən, ana Vətən, Heyranam, sənə Vətən!" Şeirinin davamı necədir?
10. Təzə il!
Gəzə-gəzə
Gəl bizim eli bəzə...
Şeiri hansı günə həsr edilmişdir?

Kiçikyaşlı uşaqlar üçün *"Nigar"* şeirini uşaqlar üçün səhnəcik şəklində təqdim edirik. Şeirdə babasının dilindən

verilən nəvəsi Nigarın hər bir hərəkəti babası üçün çox sevindiricidir. Səhnəciyi kiçikyaşlı oxucularla təşkil etmək olar.
**Kitabxanaçı:** Xoş gördük sizi, balaca dostlar. Necəsiz? Bilirəm hər biriniz çoxlu şeirlər bilirsiniz. Elə məndə şeiri çox sevirəm. Maraqlı şeirləri oxumaqdan, dinləməkdən isə xüsusi zövq alıram. Gəlin bu il 110 yaşı tamam olan Əhməd Cəmilin “Nigar” şeirinə balaca oxucularımızın ifasında qulaq asaq!

*Səhnə dekorasiyalarla bəzədilir. İştirakçılar səhnəyə gəlir.*

Bu balaca Nigardır. O, yaşıdınız olsa da, çoxdan böyüyüb. Babası ona belə deyir. Hətta babası bağçaya gülləri sulamağa gedəndə də ona kömək edir. Baba deyir ki, o çox ağıllı qızdır. Nigar çoxlu şeirlər də bilir. Elə babasının ona yazdığı şeiri də əzbərləyib. Gəlin şeirə birlikdə qulaq asaq.

**Baba** Nigar mənim nəvəmdir,
Mən onun babasıyam.
Nigara don almışam,
Papış da alasıyam.
Nigar təzə oturur,
O, yaxşı bardaş qurur
Əlindən yapışanda
Ayaq üstə də durur.
Nigar qəşəng quzumdur
Ayımdır, ulduzumdur.
Nənə də hey deyir ki:
- Nigar mənim qızımdır!
Deyirəm ay nənə, yox!
“Nənə” desə də sənə,
Özünü atır mənə.
Yəni ki: “Hamıdan çox
Babamın balasıyam”.

*Nənəsi də onu çox sevir. Nə qədər dəcəlliklər eləsə də ondan bezmir. Dişləri təzə çıxanda nənəsi ona elə bir yemək bişirmişdi ki, dadından doymaq* olmurdu.

**Baba:** Nənə deyir: - Bu Nigar
Gündə bir təzə oyun,
Gündə bir iş çıxarır.
Yox, deyirəm, nənə, yox!
Buğda tök hədik bişir,
Balamız diş çıxarır.
Nənə həvəsə gəldi,
Nənə hədik bişirdi.
Gəldi Mələk nənəsi:

**Nənə:** Ay qız bu nə həşirdi?
Nigar gündə bir oyun,
Gündə bir iş çıxarır?!

**Nənə:** Yox, yox ay Mələk nənə,
Nigarım diş çıxarır.

Doğurdanda, Əhməd Cəmilin şeirləri səmimi və zərif hisslərlə, canlı bədii lövhələrlə zəngindir. O, dünyamızın narahat taleyi ilə yaşayır, cari gerçəkliyin aktual problemlərinə fəal vətəndaşlıq münasibəti bəsləyirdi. Çox hallarda Əhməd Cəmil geniş, əhatəli hadisə və əhvalatları süjetli lirik şeirə sığışdırır, mahiyyəti ifadəli, dramatik dialoqlarla açır. Onun hələ müharibədən əvvəlki dövrdə yazdığı şeirləri də oxucuların, o cümlədən ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Əhməd Cəmilin müstəqil bir şair kimi inkişaf və bədii yaradıcılığı müharibə dövrü ilə bağlıdır. Cəbhədə yazılmasına baxmayaraq onun bu şeirlərində müharibənin atəş səsləri, qulaq batırıcı

gurultuları bilavəstə eşidilmir, ifadə və misraların təsvir ahənginə uyğun olaraq zahiri bir sakitlik, təbiət və məhəbbət lirikasına xas incəlik duyulur. Lakin müharibənin ön və arxa cəbhədəki əks-sədaları şeirlərin ruhuna elə məharətlə səpələnir ki, onları daxili ağrısız oxumaq mümkün olmur. Şair bir tərəfdən iştirak etdiyi döyüşlərdən, ümumiyyətlə, cəbhə həyatından mənalı epizod və məqamlar seçməyə imkan tapır, o biri tərəfdən onların müvafiq poetik formada onun ifadəsinə nail olur. Şairin "Tonqal başında", "Açıl ey səhər", "Qaçqınlar", "Nişan üzüyü" və s. şeirləri belə məzmun nümunələri sayıla bilər. Əhməd Cəmilin müharibə dövrü yaradıcılığının əsas xüsusiyyətlərindən biri də döyüşlərdə bilavasitə iştirak edərkən cəbhəyə dair poetik hadisə və lövhələri canlandırmağa imkan tapması, həm də incə şair həssaslığı ilə cəbhəni görüb əks etdirməsidir.

Kitabxanada şairə həsr edilmiş *"Vaxtında gəlmişik bu dünyaya biz", "Məndən sonra dünyada arzularım qalacaq""Dünyanın gözəlliyi"* və s. başlıqlar altında ədəbi-bədii gecə keçirmək olar. Gecə II hissəli təşkil oluna bilər. I hissədə şairin yaradıcılığı haqqında aparıcı tərəfindən məlumat verilir. II hissədə isə oxucular tərəfindən şairin şeirləri əsasında müxtəlif səhnəciklər, monoloqlar, parçalar hazırlanıb qonaqlara təqdim olunur. Səhnəni kitabxana zalında qurmaq olar. Gecəyə müəllimlər oxucular, məktəblilər dəvət olunur.

**Aparıcı:** Salam, əziz uşaqlar və hörmətli qonaqlar! Sizi görkəmli şairimiz Əhməd Cəmilin 110 illik yubileyi münasibətilə hazırladığımız tədbirdə xoş gördük.

**I aparıcı:** Əhməd Cəmil kimdir? Onun hansı əsərlərini oxumuşuq? Gəlin birlikdə onu tanıyaq.

**II aparıcı:** Əhməd Cəmil Azərbaycan ədəbiyyatında öz yaradıcılığı ilə çoxcəhətli ədəbi poetik fəaliyyəti nöqteyi-

nəzərindən əlamətdar olan, ümumxalq məhəbbətini, oxucu etimadını qazanmış şairlərimizdən biridir. O, 1913-cü il oktyabr ayının 13-də İrəvanda anadan olmuşdur. "Gözəl Qafqaz" adlı ilk şeiri 1928-ci ildə "Qızıl Gəncə" jurnalında nəşr edilmişdir.

**I aparıcı:** Onun yaradıcılığı zəngin həyat hadisələrini müşahidə, səmimi və zərif hisslər, canlı bədii lövhələrlə zəngindir. Əhməd Cəmil həm də öz şeirlərini məhz balalara bəslədiyi böyük məhəbbət hissi ilə yaradırdı. Şairin şeirləri uşaqlar üçün həm də tərbiyəvi xarakterə malikdir. O, bütün şeirlərində uşaqları Vətənə, xalqa məhəbbətlə, sədaqətlə, yüksək idealarla, zəhmət eşqi ilə yaşamağa, gözəl Vətənimizlə fəxr etməyə, qurub yaratmağa çağırırdı. Əhməd Cəmil həm də nəğməkar şairdir. Onun nəğmələri eldən-elə, obadan-obaya gəzir, öz şirinliyi ilə qəlbləri oxşayır.

(Aparıcı üzünü uşaqlara tutaraq soruşur)

Əhməd Cəmilin "Vətən"şerini bilirsinizmi? Onda gəlin bir yerdə dinləyək.

*Oxucu şeiri söyləmək üçün səhnəyə gəlir.*

**Oxucu:** Ey Vətən, ana Vətən,
Heyranam, sənə, Vətən!
Dupduru göllərin var,
Yamyaşıl çöllərin var,
Dağların baş-başadır,
Düzlərin tamaşadır...
Dərələrin dərindir,
Yaylaqların sərindir.
Nə gözəldir qucağın,
Doğma odun, ocağın!

Kəndlərin gül-çiçəkdir,
Şəhərlərin göyçəkdir.
Sakitdir gen düzlərin.
Coşğundur dənizlərin
Sən dünyanın gözüsən!
Taleyimin özüsən!
Sevirəm bayrağını,
Öpürəm torpağını!

**I aparıcı:** Əziz uşaqlar! Vətən haqqında nə qədər şeirlər yazılıb. Ancaq Əhməd Cəmilin "Vətən" şeiri bunlardan seçilir. Heç kəs Vətənin gözəlliklərini hamının sevdiyi tərzdə belə səsləndirməyib. Şeir xoşunuza gəldimi? Bəs sizdə öz Vətəninizi sevirsinizmi? Dinlədiyimiz şeirdə təsvir edilən Vətənimizin gözəlliyi – yamyaşıl çölləri insanı heyran qoyan düzləri, dərələri, sərin yaylaqları, gözoxşayan meşələri, gözəl təbiəti oxucunu, doğurdan da Vətənini sevməyə, qorumağa səsləyir. Vətəni qorumaq üçün isə hər birimiz öz torpağımızın qədrini bilməli, onun bir qarışını belə düşmən tapdağında qoymamalıyıq.

**I aparıcı:** Uşaqlar, Əhməd Cəmilin yaradıcılığında müharibə mövzusu da çox geniş yer tutur. Böyük Vətən müharibəsi illərində Əhməd Cəmil bir əlində qələm, bir əlində silah ön cəbhədə döyüşür. Buna görədə doğma torpağa məftunluq, məhəbbət onun şeirlərinin canında, qanında, mayasındadır. Müharibə mövzusunda şairin qələmə aldığı "Can nənə bir nağıl de" şeiri 40-50-ci illərin ən oxunaqlı şeirlərindən olmuşdur. Şeirdə canlanan nənə ilə nəvənin söhbəti başlayandan bitənə qədər poetikliyini itirmir. Hörmətli qonaqlar, gəlin oxucularımızın ifasında "Can nənə bir nağıl de" şeirini dinləyək.

*Səhnə qurulur, Oxucular səhnəyə çıxırlar.*

*Uşaq nənəsinə .*

- Ay nənə, bir nağıl de!

Ömrüm-günüm yat daha,
Hamısın indi desəm, nağıl qalmaz sabaha.

- Can nənə, de birini də.

Ağrın alım sözə bax.
Evimizdə səndən savay, gör heç varmı bir oyaq?
Gecə keçib, ev soyuyub, hənir gəlmir uzaqdan
Taxt üstündə məstan pişik odur yatıb bayaqdan
Ört üstünü, dərdin mənə, bax eşikdə yel əsir.

**I oxucu:** Qar yağırmı?

**Nənə:** Elə yağır...sazaq qılınc tək kəsir...
Belə yağsa qar sübhəcən yolu-izi örtəcək; .....
Ömrüm günüm, körpə quzum,
qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?
Atan yazır: "...Hələ xoşdur
bu tərəfdə havalar."
Deyir, oğlum darıxmasın, görüşərik bu bahar...
Bağçalarda çiçək açar gülöyşə nar, yasəmən,
Qaranquşla bir zamanda qayıdaram kəndə mən...

**I aparıcı:** Şairin uşaqlar üçün yazdığı ən yaxşı şeirlərindən biri də uşaqların sevimlisi şaxta babaya həsr edilmiş "Şaxta baba" şeiridir. Şeirdə yeni ilin əhval-ruhiyyəsi, Şaxta babanın gəlişi ilə başlanan şənlik öz parlaqlığını tapmışdır. Səmimiyyət dolu bu gözəl misraları uşaqlarımızın hər biri əzbər bilirlər. Balaca dostlarımızın ifasında şeirdən səhnəciyə tamaşa edə bilərik.

*Səhnəyə balaca oxucular gəlirlər. Səhnənin kənarında yaşlı bir baba ilə uşaqlar oturub şənlənirlər. Səhnədə uşaqlardan biri Ayazın nəğməsini musiqi sədaları altında söyləyir.*

**Oxucu(Ayaz):** Külək, sən qılınc ol, əs,
Qar sən də yolları kəs;
Meşələr uğuldasın,
Düşsün dağa, daşa səs!
Şaxta, sən də divan tut!
Donsun faşist adlı qurd.
Yağılara baş əyməz
Bizim oba, bizim yurd!

Ata, səngərdə bərk dur,
Düşməni güllənlə vur!
Qoy dünyada qalmasın
Nə faşist, nə də quldur!

Külək, sən qılınc ol, əs,
Qar, sən də yolları kəs,
Qoy toplar guruldasın,
Düşsün dağa, daşa səs!

Ayaz nəğməsini qurtarır. Uşaqlar sevinc içində atılıb düşür, şadlıq edirlər. Al-əlvan oyuncaqlarla bəzədilmiş yolka ətrafında yeni ili qarşılamaq üçün Şaxta babanı gözləyirlər. Elə bu vaxt Şaxta baba səhnədə görünür.

**II aparıcı:** Nəğmə susunca, birdən
Ev sarsıldı yerindən.
Qopdu bayırda tufan,
Uğuldadı yel, boran,

Döyüldü pəncərə bərk
Açdı qapını külək,
Yelləndi çilçıraqlar.
Doldu evə soyuq,qar...
Aha-aha, deyəsən,
Şaxta babadır gələn!..

**I aparıcı:** Saç-saqqalı tamam ağ,
Başında qardan papaq,
Girdi evə bir qoca,
Boyu çinardan uca.
Yapıncısı buz kimi
Parlayır  ulduz kimi
Qotazlı qar xurcunu,
Uşaqlar görcək bunu,
Alıb dövrəyə həmən,
Tutdular ətəyindən:

*Uşaqların səbirsizliklə gözlədiyi şaxta baba şənliyə daxil olur. Musiqi sədaları altında uşaqlar onu dövrəyə alaraq oxuyurlar:*

-Şaxta baba!
-Şaxta can,
Hardasan bu vaxtacan?

*Şaxta baba da təkbətək uşaqlarla görüşüb salamlaşır.*

**II aparıcı:** Şaxta baba gülərək,
Uşaqlarla təkbətək
Salamlaşıb görüşdü.
Nəsə yadına düşdü
Fikrə getdi bir qədər.
Dedi: Əziz körpələr!

**Şaxta baba:** Qarlı dağlar aşaraq,
Çox ellər dolaşaraq,
Dağlarda qurdum dəyə,
Gəldim sizi görməyə...

**I aparıcı:** Uşaqlar gülüşərək.
Tez atılıb-düşərək,
Babaya əl çaldılar
Sonra xəbər aldılar:

*Alqış səsləri eşidilir. Uşaqlar bir ağızdan qışqırır:*

**Uşaqlar:** Şaxta baba, can baba,
Xurcundakı nədir bəs?

**Şaxta baba:** Heç salmayın səs!..

**I aparıcı:** Əl atdı tez xurcuna,
Çıxarıb bir ağ cuna
Açdı onun qatını,
Büküb öz sovqatını
Payladı uşaqlara.

*Şaxta baba çiynindəki xurcununda gətirdiyi sovqatları uşaqlara paylayıb qurtarır, onlarla şənləndikdən sonra getməyə hazırlaşır.*

**Şaxta baba:** Eh yolçu yolda gərək...
Deyib qalxdı ayağa
Ucal çıxdı qabağa.

*Şənlikdəki uşaqlardan biri qabağa çıxaraq deyir:*

**Oxucu (Ucal):** Baba yaxşı yol
Bizi yaddan çıxarma.
Hər il çərəz gətir bol!

**II aparıcı:** Şaxta baba gülərək
Əlini götürərək-
Düz apardı qaş üstə, Dedi:

**Şaxta baba:** "O da baş üstə!"

Kitabxanada maraqlı olsun deyə şairin şeirlərini oxucularla birlikdə yada sala bilərik. Belə tədbirlər onlara şairi tanıtmağa kömək edəcəkdir

**Kitabxanaçı:**"Hər biriniz çoxlu şeirlər bilirsiniz. Bax bu şeirləri müxtəlif şairlər yazır. Əhməd Cəmil də bu şairlərdən biridir. Onun uşaqlar üçün yazdığı *"Təzə il", "Şaxta baba", "Nigar"* şeirlərinin çoxumuz əzbər bilirik.

Təzə il!
Gəzə-gəzə!
Gəl bizim eli bəzə!
Yağış gətir,qar gətir,
Günəşli bahar gətir.

*Kömək edin şeirin davamını bir yerdə söyləyək. Aparıcı uşaqlarla birlikdə şeiri söyləyirlər.*

Taxılçı taxıl əksin,
Suçu düzə su çəksin.
Bağ salsın qoca bağban,
Bar qonsun budaqlara...
Haraylasın gənc çoban
Sürünü otlaqlara.

*Şeirin davamı şairin "Dünyanın gözəlliyi" kitabında verilmişdir.*

Kitabxanada şairin fəsilləri tərənnüm edən şeirləri əsasında oxucularlarla maraqlı tədbirlər, videoroliklər hazırlayıb oxuculara təqdim etmək olar. Hər fəslin öz gözəlliyini tərənnüm edən "Fəsillər və nəsillər" şeiri əsasında hazırlanmış slayda rəngarəng fəsillərin şəkiləri, şeir parçaları əlavə etməklə oxuculara təqdim edirik. Şairin yazdığı hər bir fəsili tərənnüm edən "Fəsillər və nəsillər" şeirini oxucularla birlikdə dinləyək:

*Səhnə hər fəsli tərənnüm edən dekorasiyalarla bəzədilir. Səhnəyə hər fəsli tərənnüm edən geyimdə dörd oxucu gəlir.*

*Aparıcı uşaqlara təbiət haqqında öz biliklərini danışır, hər fəslin gözəlliyi – qışın sərtliyinin belə, gözəlliklərini onlara başa salır.*

**I aparıcı:** Məlumdur ki, Əhməd Cəmilin şeirləri uşaqların təfəkkürünün inkişafında mühüm rol oynayır. Onun "Fəsillər və nəsillər" şeiri buna sübutdur. Payızda ağaclar öz saralan yarpaqlarını tökməyə başlayır. Quşlarsa yavaş-yavaş isti ölkələrə uçub gedirlər. Qış gələndə hər yer ağappaq qara bürünür. Şaxta tək kəsən soyuğa baxmayaraq uşaqlar qışı çox sevir. Yazda al-əlvan çiçəklər çəmənləri bəzəyir. İsti ölkələrə uçub gedən quşlar öz ölkələrinə qayıdır. Bilirəm, yay tətilini çox sevirsiniz. Yayda havalar yaman isti olduğundan məktəblərdə belə uşaqlar yay tətilinə buraxılır.

**Oxucu: (Yaz)** Nə gözəl ətri olur
Gecə bu çəmənlərin!
- Nə qəşəng çətri olur
Gör, ağ yasəmənlərin!
- Hələ göy üzünə

- Ulduzlar iri, parlaq...
- Gediş-gəliş kəsilmir
- Sübhəcən küçələrdə..
- Quşların səsi qoymur
- Yatmağa gecələr də!

**Oxucu: (Yay)** Açın pəncərələri, yaman bürküdür bala.
Sərin su doldur, gətir, ay qızım bir piyala!
Su nədir, canım çay iç,ürəyin yanır əgər...
Bir piyala sərin su yayda dünyaya dəyər!

**Oxucu: (Payız)** Qızım ört pəncərəni,
Külək qurutdu məni!
Yamanca sərtləşibdir nəfəsi havaların...
Baba nə xoş ətri var bu sarı heyvaların!
Hə qızım...o heyvanı apar, elə budaqda ,
Çarpayımın başından as yatdığım otaqda!..

**Oxucu: (Qış)**Nə qəşəng qar yağıbdır, görün, həyətə bağa!
Geyindirin uşaqlar getsin qar oynamağa!

**II aparıcı**: Uşaqlar, Əhməd Cəmil həm də sevə-sevə oxuduğunuz "Göyərçin" jurnalı haqqında olan "Göyərçin" şeirini də yazmışdır. Söhbət "Göyərçin" şeirindən düşmüşkən gəlin oxucumuzun ifasında bu şeirdən bir parçaya qulaq asaq.

**Oxucu:** Göyərçinim, ağ quşum,
Gəl qoşa uçaq, quşum!
Bakının göylərindən,
Xəzərin üzərindən,
Gəl, uçaq uzaqlara,
Qoşulaq uşaqlara...

Hər zəmidən bir sünbül,
Hər bağçadan qızılgül
Toplayıb qucaq-qucaq,
Gəl, uçaq, uçaq, uçaq!
Gəl dağdan-dağa qonaq,
Ellərə qonaq olaq.
Sevək hər dost eli biz,
Öyrənək hər dili biz.
Gəzək aranı,dağı,
Yandıraq hər sübh çağı
Bir dağ başında ocaq!
Gəl, uçaq, uçaq, uçaq!

*Sonda alqış sədaları ilə uşaqlar səhnədən ayrılırlar.*

Əhməd Cəmil haqqında çox danışmaq olar. Onun dərin dünyagörüşlü bir şəxsiyyət, çox gözəl müəllim, pedaqoq, istedadlı bir şair kimi istər Şərq, istərsə də Qərb ədəbiyyatını yaxşı bilib. Şairin şeirlərini təkrar-təkrar oxuduqda bu şeirlərin saflığına, təmizliyinə, qüsursuzluğuna heyrətlənməyə bilmirsən. Əhməd Cəmilin qoyub getdiyi poetik irs kəmiyyət etibarilə ilk baxışdan az görünə bilər. Lakin bu irsə bədii keyfiyyət meyarı ilə, sənətkarlıq ölçüləri ilə yanaşsaq görərik ki, onun poeziyamızın inkişafındakı mövqeyi misilsizdir. O, poeziya qarşısında böyük sənətkar məsuliyyətini dərk edən, yaşayan şair idi. Buna görə də o, söz üzərində diqqətlə, səbrlə işləmək əziyyətindən qətiyyən çəkinmirdi. Şeirlərinin keyfiyyətlərinə isə söz əzabına səbrlə dözməsi ilə nail olurdu. Bu mənada Əhməd Cəmil yaradıcılığı gözəl yaradıcılıq nümunəsidir.

Bəli, Əhməd Cəmilin ölməz poeziyası bu gün də bizimlədir, dilimizin əzbəridir. İndi xatirələrə çevrilən Əhməd Cəmilin adı, şöhrəti əbədiyyətə qovuşub. Onun əsərləri yadigar nəğmələrə

çevrilib. Elə nəğmələrə ki, dünən də səslənib, bu gün də səslənir, sabah da səslənəcək. Biz inanırıq ki, yaşadığı əsrdə, insanların qəlbinə yol tapan, ağır günündə, kədərinə şərik olan, ürəyini ovunduran, şad günündə sevinclə nəfəs alan bir sənətkarın xatirəsini oxucularımız həmişə əziz tutacaqlar.

**Ədəbiyyat siyahısı**

Şeirlər və məqalələr : 2 cilddə. I cild - Bakı : Şərq-Qərb, 2015. - 560 s.

**Kitablarda**

Can nənə, bir nağıl de ; Zəfər ; Laylay və b. şeirlər // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə : Müasir uşaq poeziyası. - Bakı : 2018. – C.2. – S. 6471 - (Uşaq ədəbiyyatı).

Can nənə, bir nağıl de! ; Vətən : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. - C.2. - S. 154-155.

Gecə dəniz qərq olar ; Məni yada salırmı? ; Sevgi miniatürləri // Azərbaycan sevgi poeziyası : 3 cilddə. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – Kit. 2. - S. 37-40.

Tez ol, sevgilim, tez ol! ; Can nənə, bir nağıl de! ; Açıl, ey səhər! ; Salam, şanlı diviziyamız! ; Məni yada salırmı? : şeirlər // Külək qarı səpələr : Azərbaycan yazıçılarının müharibəyə həsr olunmuş əsərləri. - Bakı : Poeziya günü Nəşrlər Evi, 2010. - S. 29-36.

**Əhməd Cəmil (1913-1977)** // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007.

***Dövri mətbuatda***

***Dövrü mətbuatda***

***Abbaslı T.*** *Can könül... : Bir sağlıq de, bizim gözəl şairimiz Əhməd Cəmil barədə... // Mədəniyyət. - 2016. - 19 oktyabr. - № 79. - S. 13.*

**Elçin.** Otuz altı ildən sonra : [Şair Əhməd Cəmil haqqında fikirlər] // Ədəbiyyat qəzeti. - 2018. - 5 may. - № 16. - S. 2.

**Elçin.** Otuz ildən sonra : Əhməd Cəmil // Ədəbiyyat qəzeti. - 2008. - 18 iyul. - S. 3.

**Elçin.** Otuz altı ildən sonra : [şair Əhməd Cəmil haqqında fikirlər] // Ədəbiyyat qəzeti. - 2018. - S. 2.

**Əhmədalılar T.** Can balalar : Bir nağıl deyin - şair babanız Əhməd Cəmil barədə... // Mədəniyyət. - 2014. - 17 oktyabr. - № 79. - S. 13.

**Əsgərova Y.** "Mən bu qala divarında bir daşam" : Əhməd Cəmilin süjetli lirikası // Azərbaycan. - 2014. - № 5. - S. 179-185.

**Əhmədalılar T.** Can balalar : bir nağıl deyin - şair babanız Əhməd Cəmil barədə... // Mədəniyyət. - 2014. - S. 13.

**Əsgərova Y.** "Mən bu qala divarında bir daşam" : Əhməd Cəmilin süjetli lirikası // Azərbaycan. - 2014. - S. 179-185.

**Fərəcov S.** Zərif hisslər, duyğular şairi : Əhməd Cəmil haqqında // Mədəniyyət. - 2013. - S. 13.

**Fərəcov S.** İlk görüş, son ayrılıq xatirində qalırmı ? : Əhməd Cəmil - 110 // Mədəniyyət : qəzet. - 2023. - 11 oktyabr. - № 75. - S. 6.

**Fərəcov S.** Zərif hisslər, duyğular şairi : Əhməd Cəmil haqqında // Mədəniyyət. - 2013. - 27 sentyabr. - № 69. - S. 13.

**Xəlil Z.** Uşaqlara sevinc bağışlamaq qayəsi : şair Əhməd Cəmilin uşaq dünyası ilə bağlı şeirlərindən bəhs edilir // Azərbaycan məktəbi. - 2013. S. 55-58.

**Xəlil Z.** Uşaqlara sevinc bağışlamaq qayəsi : Şair Əhməd Cəmilin uşaq dünyası ilə bağlı şeirlərindən bəhs edilir // Azərbaycan məktəbi. - 2013. - № 6. - S. 55-58.

**Kamal R.** Əhməd Cəmilin "dava nağılı" // Ədəbiyyat qəzeti. - 2020. - 9 may. - № 13. - S. 7.

**Kərim Ə.** Sevimli nəğmələr : Əhməd Cəmil haqqında // Ədəbiyyat qəzeti. - 2013. - S.4.

**Kərim Ə.** Sevimli nəğmələr : Əhməd Cəmil haqqında // Ədəbiyyat qəzeti. - 2013. - 30 avqust. - № 32. - S. 4.

**Teymur M.** Əhməd Cəmilin şəxsi fondu : Əhməd Cəmil - 100 // Azərbaycan. - 2013. - S. 70-76.

**Teymur M.** Əhməd Cəmilin şəxsi fondu : Əhməd Cəmil - 100 // Azərbaycan. - 2013. - № 10. - S. 70-76.

**Yusifli V.** Bu Əhməd Cəmildir : Əhməd Cəmilin anadan olmasının 100 illiyi // Ulduz. - 2013. - № 12. - S. 25-29.

**Yusifli V.** Bu Əhməd Cəmildir : Əhməd Cəmilin anadan olmasının 100 illiyi // Ulduz. - 2013. - S. 25-29.

**Vəfalı A.** Ədəbiyyatımızın salnaməsi : "Ədəbiyyat qəzeti" - 80 // Ədəbiyyat qəzeti. - 2014. - 10 yanvar. - № 1. - S. !-3.

**Vəfalı A.** Ədəbiyyatımızın salnaməsi : "Ədəbiyyat qəzeti" - 80 // Ədəbiyyat qəzeti. – 2014. – S. 1-3.

**Zeynalov Ə.** Görkəmli şair və tərcüməçi : Əhməd Cəmil haqqında // Respublika. - 2013. - S. 10.

**Zeynalov Ə.** Görkəmli şair və tərcüməçi : Əhməd Cəmil haqqında // Respublika. - 2013. - 22 oktyabr. - № 231. - S. 10.

**Nəğmələrlə dolu bir şair ömrü - Əhməd Cəmil**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**